AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

LAYLA VƏ OXŞAMALARIN DİLİ

İxtisas: 5706.01– Azərbaycan dili

Elm sahəsi: Filologiya

İddiaçı: **Könül İsrafil qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Sumqayıt – 2022

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor

Buludxan Əziz oğlu Xəlilov

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
İkram Ziyad oğlu Qasımov

filologiya elmləri doktoru, professor
Nəriman Fərman oğlu Seyidəliyev

filologiya üzrə fəlsəfə doktoru, dosent
Aynur Famil qızı Qədimaliyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
_____ **Ramazan Salam oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi : filologiya üzrə fəlsəfə doktoru, dosent
_____ **Böyükxanım İbrahim qızı Eminli**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
_____ **Astan Əhmədxan oğlu Bayramov**

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Azərbaycan dilinin tarixi təkamülünü, onun daxili inkişaf yollarını araşdırıb üzə çıxarmaq, linqvistik xüsusiyyətlərinin dərindən, geniş təhlilini vermək dilçiliyimizin, eləcə də filologiya elminin qarşısında duran ən aktual problemlərdəndir. Azərbaycan filologiyasında layla və oxşamalar ədəbiyyatşünaslıq istiqamətində geniş öyrənilsə də onun linqvistik aspektləri tədqiqatdan kənarda qalmışdır, onda bu sahədəki sistemli araşdırmaların aktuallığı və vacibliyi bir daha özünü təsdiq etmiş olur. Məhz bu cəhətdən də layla və oxşamaların dilinin monoqrafik tədqiqat obyektinə çevrilməsi Azərbaycan dilçilik elmi qarşısında duran ən mühüm vəzifələrdən biri hesab olunmalıdır.

Azərbaycan dilçilik elmində layla və oxşama dilinin öyrənilməsi sahəsində aparılmış bu tədqiqat əsəri yuxarıda göstərilən boşluğun doldurulması ilə bağlı ilk araşdırmadır. Xüsusilə, layla və oxşamaların fonopoetikası, üslubi leksikası bədii imkanları baxımından daha zəngindir. Ona görə də layla və oxşamaların fonopoetik və üslubi leksikasının araşdırılması əsas hədəf kimi seçilmişdir.

Layla və oxşamalardakı dil materialları bir tərəfdən dilimizin tarixi inkişafını, onda baş verən linqvistik təkamülü təcəssüm etdirirsə, digər tərəfdən xalqımızın həyat tərzini, məişətini, ana-övlad münasibəti fonunda dünyabaxışını, milli psixologiyamızın ən mühüm göstəricilərini izləmək üçün zəngin materiallar verir. Eyni zamanda poetik örnəklərin milli təfəkkür işığında səciyyələndirilməsi fonunda dilimizin bədii imkanlarının genişliyini üzə çıxarır. Bundan başqa, folklor dilinin poetik-üslubi vasitələrinin zənginliyini, layla və oxşamaların dilinin canlı ünsiyyət dilinə yaxınlığını da təsdiq edir. Bu mövzunun xalq yaradıcılığını, onun dilinin bədii-estetik

səviyyəsini üzə çıxarmasını da nəzərə alaraq belə fikri söyləmək olar ki, dissertasiya işi aktualdır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqat işinin obyekti adından da göründüyü kimi, layla və oxşamaların dili və üslubudur. Araşdırmanın predmeti tədqiqat obyektinə uyğun olaraq, layla və oxşamalardakı fonetik-üslubi vasitələr, leksik-semantik söz qrupları, frazeoloji birləşmələr, məcaz növləri və istifadə dairəsinə görə söz qruplarıdır.

Tədqiqat işinin məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi layla və oxşamaların dilinin üslubi, obrazlılıq imkanlarını aşkara çıxarmaq, onların özəlliyini müəyyənləşdirməkdir. Bu məqsədə çatmaqdan ötrü aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- layla və oxşamaların dilindəki transkripsiyanın özəl əlamətlərinə diqqəti yönəltmək;
- assonansın intonasiya çalarlarını və üslubi keyfiyyətlərini aşkarlamaq;
- alliterasiyanın akustik incəliklərinin və ritm qəliblərinin təhlilini vermək;
- intonasiya və ritmik-melodik vasitələrin üslubi özəlliklərini araşdırmaq;
- anaforanın fonetik-üslubi aspektlərini üzə çıxarmaq;
- epiforada əksini tapan poetik dinamizmin səciyyəvi cəhətlərini dəyərləndirmək;
- ümumişlək sözlərin üslubi yönümlərinin xarakterik vaxtlarını təyin etmək;
- dialektizmlərin üslubi zamanlarda işləkliyini araşdırmaq;
- köhnəlmiş sözlərin müəyyən üslubi kateqoriya kimi çıxış etməsini elmi təhsil müstəvisində nəzərdən keçirmək.
- sinonimlərin üslubi xarakterini şərh etmək;
- antonimlərin üslubi-semantik funksionallığına aydınlıq vermək;
- omonimlərin bədiilik ölçülərini aşkara çıxarmaq;

– frazeoloji vahidləri poetiklik prinsiplərin tələblərinə uyğun gözdən keçirmək;
– məcazi sözlərin üslubi özəlliklərini və bədii dəyərinin təhlilini vermək;

Tədqiqatın metodları. Dissertasiya işi tədqiqatın xarakterinə uyğun olaraq linqvistik təsvir metodu ilə aparılmış, yeri gəldikcə kontekstual-situativ və funksional-üslubi metodlardan da istifadə olunmuşdur. Layla və oxşamalardakı dil faktlarına sinxron aspektdə yanaşılsa da, konkret məqamlarda dil materialları diaxron müstəvidə də araşdırılmışdır. Ədəbi dilin normaları ilə uyuşmayan faktları təhlildən keçirərkən tarixi-müqayisəli metoda da müraciət olunmuşdur. Müasir dilçilik, tarixi qrammatika və üslubiyyata dair elmi-nəzəri müddəalardan, müasir linqvistikanın nailiyyətlərindən, tədqiqat mövzusu ilə bağlı nəzəri konsepsiyalardan metodoloji əsas kimi bəhrələnilmişdir.

Müdafiəyə təqdim olunan müddəalar:

1. Şifahi xalq ədəbiyyatının əsas qollarından biri kimi layla və oxşamaların dil və üslubunun tədqiqi folklor poetikasının qarşısında duran ən mühüm vəzifələrdən biridir.

2. Fonetik transkripsiya layla və oxşamalarda bədii-üslubi imkanlarını nümayiş etdirərək mühüm bədii keyfiyyət göstəricisinə çevrilir.

3. Fonoloji təkrarlar layla və oxşamalarda fəal bədii mövqe qazanaraq üslubi fəallıq göstərir.

4. Dilimizin fonetik sisteminin poetik imkanları alliterasiya və assonansın timsalında bədii-estetik keyfiyyətlərini nümayiş etdirir.

5. Layla və oxşamaların səslənmə keyfiyyətində ritm və intonasiya çalarları orijinal təzahür formalarında meydana çıxır.

6. Anafora və epiforaların poetik-üslubi aspektləri layla və oxşamalarda ekspressiv vasitə kimi çıxış edir, poetik mühitin emosional özülünü qüvvətləndirir.

7. Layla və oxşamaların dil mənzərəsində ümumişlək sözlər bədii deyimi gözəlləşdirən, lirik ovqatın ən mühüm məqamlarını əks etdirən dil vahidləri kimi işlənmə intensivliyi qazanır.

8. Dialektizmlər leksik-semantik və üslubi funksiyasında fəallığı ilə diqqət çəkir, onlar digər nitq layları ilə çulğaşaraq fəal leksik-üslubi kateqoriya vəziyyətinə keçir.

9. Layla və oxşamalarda köhnəlmiş sözlər insanların keçmiş həyat tərzini, dini düşüncələrini, inanclarını, adət-ənənələrini təbii boyalarla əks etdirən poetik örnəklər kimi diqqət çəkir.

10. Sinonimlər poetik fikrin estetik təsirini artırır, mətnin bədii təsirini vüsətləndirir və mənanın yeni çalarlarla zənginləşmə ehtiyaclarını ödəyir.

11. Poetik fikri, lirik ovqatın təzadlı məqamlarını təsirli əksetdirmə vasitəsi kimi antonimlər daxili ekspressivlik və dinamik rolu gücləndirir.

12. Omonimlərdən istifadə layla və oxşamaların forma və mündəricə münasibətlərini ən vacib bədii-estetik hadisə kimi biruzə verir. Omonimlərin kontekstdəki fəallığı onların daxili üslubi mahiyyətindən irəli gəlir.

13. Layla və oxşamaların bədii dil sistemində frazeoloji vahidlər dilimizin milli ruhuna, xalq hikmətinə söykənir, obrazlılığın, emosional-ekspressiv məziyyətlərin yaranmasında müstəsna rol oynayır.

14. Layla və oxşamalarda məcazi mənalar hesabına leksik vahidlərin məna tutumunun zənginləşməsi, epitet, təşbeh və metaforalarda sözlərin ekspressiv-emosional əlamətlərinin güclənməsi folklor nitq mədəniyyətini təmin edən amillərdəndir.

Tədqiqatın elmi yeniliyi. Azərbaycan dilçiliyində layla və oxşamaların dili və üslubunun əsas istiqamətləri nəzəri baxımdan sistemli, kompleks şəkildə indiyədək araşdırılmamışdır. Dissertasiya işi bu sahədə ilk mükəmməl və tutarlı tədqiqat əsəridir. Müasir təfəkkür işığında və dilçilik elmi

zəminində layla və oxşamaların dilinin elmi şərhini, təhlilini vermək dissertasiya işində diqqətçəkən yenilikdir. Dissertasiyada ilk dəfə olaraq, layla və oxşamaların dil materialları geniş planda tədqiqata cəlb edilərək, bu folklor örnəklərinin üslubi fonetik, leksik-poetik xüsusiyyətləri geniş aspektdə linqvistik tədqiqat işinə daxil edilmiş, xarakterik layla və oxşama nümunələri sistemli şəkildə araşdırılmışdır. Dilin lüğət fondunun ayrılmaz qoluna aid leksik-semantik söz qruplarının qarşılıqlı əlaqələrinin layla və oxşamalar zəminində linqvistik nəzəri müddəalar, elmi-nəzəri mühakimələr əsasında tədqiq və təhlil edilməsi dissertasiya işində müsbət dəyərləndirməyə layiq ən mühüm, başlıca yenilikdir.

Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti. Dissertasiya işində qədim və zəngin folklor janrının – layla və oxşamaların dil və üslub xüsusiyyətləri müasir dilçilik elminin tələblərinə uyğun araşdırılmışdır. Bu mövzuda yazılmış ilk sistemli tədqiqat əsəri olduğu üçün dilçilər, eləcə də folklorşünaslar üçün nəzəri-praktik əhəmiyyətli qaynaq ola bilər. Azərbaycan dilinin tarixi fonetika və leksikologiyasının bəzi problemlərinin düzgün yönümdə həllində faydalı rol oynayacağı da qeyd edilməlidir. Şifahi xalq yaradıcılığına aid nümunələri bəzəyən fonetik-leksik vahidlərin üslubi-semantik xüsusiyyətlərinin üzə çıxarılmasında, müəyyənləşdirilməsində tədqiqatçıların bu dissertasiyadan bəhrələnəcəyinə şübhə yoxdur. Dissertasiya işi folklorşünaslığın bir sıra vacib məsələlərinin elmi izahına da töhfə verə bilər. Dissertasiya işindən dilçilik, o cümlədən folklorşünaslıq sahəsində aparılacaq tədqiqatlarda elmi mənbə kimi istifadə olunacaqdır. Filologiya fakültəsinin bakalavr və magistratura pillələrində təhsil alan tələbələr, həmçinin filoloq doktorantlar bu dissertasiya işindən faydalana bilərlər. Bu mövzuda seçmə fənlərin tədrisi zamanı bu tədqiqat işindən yararlanmaq mümkündür.

Bundan başqa, dissertasiyadakı zəngin dil materialları imkan verir ki, tədqiq olunan materiallardan üslubiyyata, poetik

linqvistikaya dair vəsaitlərin hazırlanmasında, izahlı frazeoloji, məcazi sözlər və s. lüğətlərinin tərtibində istifadə olunsun.

Aprobasiyası və tətbiqi. Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas məzmunu AAK-ın qeydiyyatında olan müxtəlif respublika əhəmiyyətli elmi məcmuələrdə, eləcə də xaricdə nəşr olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır. Müəllif Azərbaycan dilçiliyinin müxtəlif problemləri bağlı respublika və beynəlxalq səviyyəli elmi-nəzəri konfranslarda, ADPU və Nəsimi adına Dilçilik İnstitutunun təşkil etdiyi seminarlarda da iştirakçı olmuş, öz mülahizələrini bölüşdüyü dilçi-alimlərin məsləhət və tövsiyələrindən yararlanmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 7 səhifə, I fəsil – 63 səhifə, II fəsil – 72 səhifə, nəticə – 4 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı – 12 səhifə, dissertasiyanın ümumi həcmi 221.376 işarədir.

TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqqatın nəzəri və praktik əhəmiyyəti, aprobasiya və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli "Layla və oxşamaların fonopoetikası"** adlanır. Bu fəsildə şifahi xalq ədəbiyyatı

nümunələrimiz olan layla və oxşamalarda işləkliyinə və üslubi roluna görə daha çox diqqəti cəlb edən fonetik üslubi vasitələr araşdırılır. Layla və oxşamalarda fonetik ifadə üsulları olduqca zəngindir.

Poetik mətnlərdə bədii məzmunu zənginləşdirməkdə, onun ifadəsində fəal iştirak edən fiqurlardan sayılan layla və oxşamalar mühüm fonoloji vasitələrin daşıyıcısıdırlar. Fonopoetik vasitələr lirik təhkiyəni canlandırır və gücləndirir.

I fəslin **"Fonetik transkripsiyanın bədii üslubi imkanları"** adlı I paraqrafında göstərilir ki, layla və oxşamaların fonetik sisteminə məxsus akustik imkanları, onların fəal estetik mövqeyini, yaratdığı forma kamilliyi fonetik transkripsiyasız təsəvvür etmək mümkün deyil. Fonetik transkripsiya layla və oxşamalarda canlı danışıq dilinin ritmini, səs-ahəng birliyini təcəssüm etdirir.

Tədqiqat onu göstərir ki, orfoqrafik normanın pozulması bu şeirlərdə özünü ən çox özünü bəzi şəkilçilərin (-lar[2] , –ıb[4] , -dan[2] və s.) sait və samitlərin (q, ğ, k, e, ə və s.) yazılışında göstərir:

Dəsmalı göyçək balam,
Saçağı ipək balam,
Cavannarın içində,
Hamıdan göyçək balam[1].

Bir quş vurdum uçanda,
Ov ovladım qaçanda,
Bir cüt qurban demişəm,
Nəvəm ayağ açanda[2].

II paraqraf **"Assonansın poetik imkanları"** adlanır. Ümumiyyətlə, assonans xalq şeirimizdə çox məhsuldar ritm-

---

[1] Azərbaycan folkloru antologiyası. Qaraqoyunlu folkloru / toplayıb tərt. ed. H. İsmayılov, Q. Süleymanov. – Bakı: Səda, – 2002. VII kitab. –s.340
[2] Mirzəyev, H.İ. Dərələyəz folkloru / H.İ. Mirzəyev. – Bakı: Elm, – 2006. – s.192

intonasiya vasitəsi sayılmaqla yanaşı, həm də mətnin fonopoetik təşkilində mühüm rolu vardır. Bu səs təkrarları layla və oxşamaların demək olar ki, bütün nümunələrində az-çox özünü göstərir və mətni ahəngdarlıq elementləri ilə zənginləşdirir. Bu təkrarlar layla və oxşamalarda ahəngdarlığın əsasını təşkil edir:

Laylay dedim, yatınca,
Gözlərəm ay batınca,
Canım cəzanə gəldi,
Sən hasilə çatınca[3].

Bütün saitlər miqdarından, təsir gücündən və yerindən asılı olaraq bu şeir nümunələrində assonans yarada bilir və şeirin daha zəngin və məzmunlu alınmasında, fikrin və mənanın qabarıqlaşdırılmasında böyük rol oynayır. Saitlərin qalın və incə növlərini əsas götürərək layla və oxşamalarda assonans hadisəsini belə qruplaşdıra bilərik: a) qalın saitlərin assonansı; b) incə saitlərin assonansı.

"Alliterasiyanın poetik imkanları" adlı III paraqrafda alliterasiya layla və oxşama dilində ritm və intonasiya əlamətlərindən biri kimi araşdırılır. Qeyd olunur ki, uşaq folkloru nümunələrində ahəngdarlığı, musiqililiyi, ritmikliyi gücləndirən fonetik üslubi vasitələrdən biri alliterasiyadır.

Alliterasiya zamanı əşya və hadisələrin fonetik təsviri poetik fikrin qavranılması ilə paralellik təşkil etməklə müxtəlif assosiyalar doğurur, təkrarlanan samit səslərin şeirləşməsi baş verir. Alliterasiya mətni emosioanal tələffüz axarına çıxarır ki, bunun nəticəsində də səsin alliterativ təkrarından şeiriyyətin zənginləşməsi, bədii notların keyfiyyətcə artması prosesi reallaşır.[4]

Əsasən layla və oxşamalarda alliterasiya iki şəkildə aşkarlanır:

---

[3] Abbaszadə, M.A. Arvad ağısı / M.A. Abbaszadə. – Bakı: Səda, – 2004. – s.45

[4] Краснова, Л. В. Поэтика Александра Блока / Л. В. Краснова. – Львов, – 1973. –с.96

a) Müəyyən samit səslər ixtiyari ardıcıllıqla təkrarlanır;

b) Alliterasiyanın ikinci növü semantik fəallıqla fərqlənir, yəni samitlər dayaq sözə görə təkrarlanır. Təkrarlanan samit hər dəfə dinləyicini lazımlı kəlməyə qaytararaq fikri istiqamətləndirir.

IV paraqraf **"Ritm və intonasiyanın bədii imkanları"** adlanır. Özəl bədii quruluşu ilə fərqlənən layla və oxşamaların ahəngdarlıq keyfiyyətləri janrın öz məzmunundan və formasından qaynaqlanır. Ahəngdar, düzgün və ardıcıl sıralanan poetik nitqi ilə diqqəti çəkdiyi vurğulanan layla və oxşamaların ciddi, münasib və oynaq bir quruluşu vardır.

Bu lirik nəğmələr ritmdən xaric yarana bilməz, qəbul edilə bilməz. Ümumiyyətlə, ritm və intonasiya şeir dilinin ən vacib göstəricilərindəndir. Şeirdə bu ritm və avazı yaradan amillər, səbəblər çoxdur. Bunlardan biri, şeirdə vəznyaradıcı funksiyası olmayan vurğudur. Əlbəttə, vurğu, şeirin vəzninə bir təsir edə bilməsə də, bədii mətnin ifası prosesində az rol oynamayan ritmik vasitədir. Xalq şeirimizin bəzi janrlarında, eləcə də layla və oxşamalarda vurğu məzmundan irəli gələn "*emosional tona, pafosa, ünsiyyət situasiyasına*" [5] uyğunlaşaraq həmahəng, münasi ritmi təyin edir.

Aşağıda gətirəcəyimiz layla nümunəsində hər misrada vurğulu hecaların sayının və pozisiyalarının eyni olması və şeirin ümumi ritminin buna uyğun olmasını görmək çətin olmur:

Laylay dedim, adına.
Haqq yetişsin dadına,
Hər vaxt layla deyəndə,
Balam düşər yadıma [6].

Nümunədə vurğular 2, 4, 7 / 1, 4, 7 / 1, 4, 7 / 2, 4, 7/ nəqarət: 2, 4, 7/ 2, 4, 7 ardıcıllığı ilə düzülmüşdür. Misraların

---

[5] Qafarova, S.H. Azərbaycan xalq şeirində bədii üslub / S.H. Qafarova. – Bakı: Mütərcim, – 2006. – s. 121

[6] Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər) / toplayıb tərt. ed. X.Məmmədov, A. Həsənov. – Bakı: Nasir, –2002. – 636 s.

məntiqi ardıcıllıqla düzülüşündən asılı olaraq 1, 4, 5, 6-cı və 2, 3-cü misralarda eyni ritmik ahəng və ya misraların paralellik prinsipi ilə düzülüşü izlənilir. Bu da laylalara xas bir deyim tərzi, bir musiqililik, bir üslub formalaşdırır.

Uşaq şeirində olduğu kimi, uşaq folkloru nümunələrində də qafiyənin əsas rolu şeirdəki əsas fikri, hiss-həyəcanı səslər vasitəsilə göstərə bilməkdir. Qafiyə şeirin estetikasını gözəlləşdirdiyi kimi, bədii fikrin də təsirli verilməsini təmin edir.

Layla və oxşamalarda qafiyə əsasən göz və qulaq qafiyəsi şəklində qruplaşdırılır. Adından göründüyü kimi, göz qafiyəsi yazıda gözlə görülürsə, qulaq qafiyəsi şifahi tələffüzlə, eşidilərək müəyyən olunur. Xalq yaradıcılığı nümunələrimizdə hər iki qafiyə növünə rast gəlinsə də, qulaq qafiyəsinin daha çox fərqləndiyini müşahidə edirik:

Arzumsan, diləyimsən,
Gülümsən, çiçəyimsən,
Bizim öydə hamıdan,
Mənim ən göyçəyimsən [7].

"Anafora və epiforanın poetik imkanları" I fəslin sonuncu, V paraqrafıdır. Bu paraqrafda layla və oxşama dili üçün xarakterik olan anafora və epiforanın üslubi xüsusiyyətləri tədqiq olunur.

Layla və oxşamalarda da anafora ritm və intonasiya göstəricisi kimi çıxış edərək sətirlərin əvvəlində təkrarlanır, tempi surətləndirir, poetik mənanı gücləndirir:

Bala dadı, bal dadı,
Bala adam aldadı,
Şirini-şirin olur,
Acısı da bal dadı[8].

---

[7]Azərbaycan folkloru antologiyası. Qaraqoyunlu folkloru / toplayıb tərt. ed. H. İsmayılov, Q. Süleymanov. – Bakı: Səda, – 2002. VII kitab. –s. 338

[8] Azərbaycan folklor antologiyası / toplayanı və tərt. ed. Ə. Axundov, red. Q. Qasımzadə / – Bakı: Az.SSR. Elmlər Akademiyası, – 1968. I kitab. –s.67

Epiforalar da nitqin ritmik təşkilində müstəsna rol oynayır. Layla və oxşamaların arkiotexnik funksiyalarını gerçəkləşdirməkdə xüsusi fəallıq göstərir. Məhz buna görə də layla və oxşamalarda epifora layla və oxşamalarda işlənmə sıxlığı ilə diqqəti cəlb edir:

Mən sənə qalam deyim,
Gül deyim, balam deyim,
Yat incitmə ananı,
Sağ olsun balam deyim[9].

Bədii nümunələr üzərində aparılan təhlillər göstərir ki, layla və oxşamalarda öz işlənmə intensivliyi ilə seçilən anafora və epiforalar xüsusi poetik ab-hava yaradan ifadə vasitələridir. Onlar bu folklor janrının emosional enerjisini aşkarlayır.

II fəsil "Layla və oxşamaların üslubi leksikası" adlanır və səkkiz paraqrafdan ibarətdir**. "Ümumişlək sözlərin bədii imkanları"** adlanan I paraqrafda ümumişlək sözlərin layla və oxşamaların dilini sadə, anlaşıqlı, təbii və axıcı səslənmə ilə təmin etməsindən danışılır.

Ayrılıqda heç bir leksik üslubi yükü olmadığını düşünsək də, ümumişlək sözlər bədii mətn daxilində yanaşı işlənərək şeirə xüsusi ekpressivlik gətirir, onda ahəngdarlıq yaradır. Layla və oxşamalarda hər bir ümumişlək sözün bədii mətndə özəl yeri olduğu dərhal hiss olunur. Bədii mətndə ümumişlək sözlərin başlıca fərqləndirici əlaməti, özəlliyi onların üslubi-estetik çevikliyidir:

Qurbanam özüm, özüm,
Yuxusuz necə dözüm.
Gecəni gündüz kimi,
Tikmişəm sənə gözüm[10].

---

[9] Azərbaycan bayatıları / tərtib ed.: B. Abdulla, Q. Babazadə, E. Məmmədli. – Bakı: XXI-Yeni nəşrlər evi, – 2004. – s. 205

[10] Uşaq dünyası / Tərtibçilər: Ə.Mikayılov, A. Xanəhmədoğlu. – Bakı: Şirvannəşr, – 2005. –s.12

Həyatın müxtəlif sahələrinə aid bu anlaşıqlı sözləri düzgün və yerində qarşılaşdırmaqla istənilən fikri bədii formada və çox emosionalcasına göstərmək mümkündür. Əlbəttə, burada ana ilə övlad arasında daxili bağlılıq və istək, şeirin oxunduğu mühit və qarşıya qoyulan məqsəd (körpəni yatırmaq və ya əyləndirmək) vacib şərtlərdəndir. Daha sonra isə gündəlik həyatda işlənən və asan qəbul edilən ümumişlək sözlərdən məharətlə, bacarıqla bəhrələnməklə çox canlı və eyni zamanda musiqili parçalar ortaya çıxır. Görünüşcə sadə görünən bu sözlər birləşərək layladakı sevgini, nəvazişi, oxşamadakı şuxluğu, əzizlənməni tam ifadə etməyə qadirdirlər. Sadə görünən sözlər olduqca mürəkkəb ovqatın ruhiyyənin, ana məhəbbətinin təntənəli əks-sədasına çevrilir. Bütövlükdə bədii mətn ana-övlad münasibətlərinin bənzərsiz müqəddəsliyi ilə dil sənətkarlığının, dilin melodiya və nəğmə qaynağının birliyindən yaranır:

Laylay çaldım həmişə,
Karvan enər enişə,
Yastığında gül bitsin,
Döşəyində bənövşə[11].

Layla və oxşamalarda işlənən ümumişlək sözlər həyatın müxtəlif sahələrində işlənir. İstənilən mövzunun, istənilən münasibətin və istənilən hissin ifadəsi üçün ümumişlək sözlərdən yararlanılır. Bu baxımdan buradakı ümumişlək sözləri şərti qruplara ayırmağı lazım bildik: a) ad bildirənlər; b) əlamət və keyfiyyət bildirənlər; c) əvəzliklər (əsasən şəxs əvəzlikləri); d) hiss, həyəcan, bildirənlər.

II paraqraf **“Dialektizmlərin bədii xüsusiyyətləri”** adlanır.Dialekt leksikasının layla və oxşamalarda ümumişləkliyi ən öncə xalqın folkloru, etnoqrafiyası ilə sıx bağlılığıdır. Dialektizmlər möhkəm linqvistik ənənələrə söykənən dilin funksional üslublarını, normalarını diqqətə yönəldir. Layla və oxşamaların, eləcə də başqa folklor janrlarının nitqi yarandığı

[11] Uşaq folkloru / Nəşrə haz. R. İsmayılov. – Bakı: Altun kitab, – 2007. – s.56

dövrün danışıq üslubunun, tərzinin milli ruhda və özəlliklə əks etdirir. Dialektizmlərin fəal işləklik qazandığı layla və oxşamaların nitqində xalqın poetik düşüncəsi öz əksini tapmışdır:

Qızım qızlar içində,
Altun, hicil qıçında.
Qızıma diləkçi gəli,
Bugun yarın içində[12].

Təbii ki, istənilən bədii əsər ədəbi dil normalarına tabe olmalı və orada mümkün qədər sözlərin ədəbi dildəki variantına, dialekt variantından daha çox yer verilməlidir. Dialekt sözləri dilimizdə ağırlıq və çətinlik törətdiyi üçün bunun həm də nitqin təmizliyi baxımından əhəmiyyəti vardır. Lakin biz belə düşünürük ki, layla və oxşamaların tərtibçiləri burada mənsub olduqları bölgəyə aid olan sözləri misralarda layla və oxşamaları işlətməklə dinləyənlərə qarşı öz saf və təmiz niyyətlərini, doğmalıq hisslərini daha real göstərmək istəmişlər. Çünki çox zaman bu sözlərin ədəbi dildəki qarşılıqlarına belə bələd olmadan, zərurət nəticəsində öz bölgələrində işlənən variantı işlətməklə yetərlənirlər. Yuxarıda da qeyd etdiyimiz kimi, hətta bəzi dialekt sözləri məhz həmin coğrafi zonaya xasdır, ədəbi dildə qarşılıqları yoxdur, onlar yararndıqları bölgənin koloritini gerçəkləşdirən üslubi fiqurdurlar.

Layla və oxşamalarda işlənən dialektizmlərin müəyyən fonetik, semantik və qrammatik xüsusiyyətləri vardır. Bu baxımdan onları aşağıdakı kimi qruplaşdıra bilərik:1) fonetik dialektizmlər; 2) qrammatik dialektizmlər; 3) lüğəvi-leksik dialektizmlər.

Şeirdə məhz bədii fikrin ifadəsinə xidmət edən sözlərin fonetik, leksik-semantik və qrammatik fərqlərə uğradıqlarını, həmin linqvistik əlamətlərin daşıyıcısı olduqlarını görürük. Bunlar

---

[12] Kərkük folkloru antologiyası / tərtib ed.: Q.M.Paşayev. – Bakı: Azərnəşr, – 1990. – s.300

isə diqqəti həmin sözlərə yönəltməklə yanaşı, həm şeirlərə estetik keyfiyyət qazandırır, həm də onların poetikliyini qabarıqlaşdırır.

III paraqraf **"Köhnəlmiş sözlərin bədii imkanları"** adlanır. Paraqrafda göstərilir ki, dilimizdə işləkliyini itirmiş köhnəlmiş sözlər layla və oxşamaların dilində müəyyən tarixi dövrün çalarlarını daha real və təsirli çatdırmaq kimi üslubi funksiya ilə çıxış edir. Belə sözlər dilin qədimliyini göstərən ən başlıca vahidlər kimi, ədəbi nümunələrimizin tərkibində yaşamış, müasir dövrümüzə qədər gəlib çıxa bilmişlər. Nəzərə alsaq ki, uşaq folkloru nümunələrimiz bir dövrün deyil, müxtəlif tarixi mərhələlərin məhsuludur, belə vahidlərin-köhnəlmiş sözlərin bu nümunələrdə işlənməsi təbii sayıla bilər.

Köhnəlmiş sözlər qədim dövr insanlarının həyat şəraitinin, yaşayış tərzinin, məişətinin, dünyagörüşünün ilkin mənzərəsini göstərə bilməklə yanaşı, həm də qədim insanların adətləri, inancları və həmin tarixi dövrün siyasi mənzərəsi barədə təsəvvür formalaşdıra bilir. Belə demək olar ki, köhnəlmiş sözlər tarixi dövr çalarlarını təbii şəkildə çatdırmaq üçün ən uyğun üslubi vasitədir:

Layla dedim, carçı mən,
Harayçı mən, carçı mən.
Toy günündə olaydım,
Küçələrdə carçı mən[13].

Nümunə kimi təqdim etdiyimiz laylada carçı və harayçı sözləri diqqəti cəlb edir. Bu iki söz həm də bir-birilə sinonimdir.

"Car çəkmək" köhnəlmiş sözündən düzəlmiş "carçı" ifadəsi izahlı lüğətdə "car çəkən", "uca səslə bir xəbəri hər kəsə elan edən, bildirən" anlamında izah olunur"[14] Qədimdə bu işlə məşğul olan insanlar xalqa vacib olan xəbərləri, elanları məhz bu

---

[13] Azərbaycan folkloru antologiyası. Dərbənd folkloru / toplayıcılar H. İsmayılov, S. Xurdamiyeva ; tərt. ed., ön söz. H. İsmayılov, T. Orucov ; red. H. İsmayılov/– Bakı: Səda, – 2006. XIV kitab. – s.275

[14] Azərbaycan folkloru / tərtib ed. və ön sözün müəl. B. Abdulla ; red. İ. Abbaslı. – Bakı: Şərq-Qərb, – 2005. –s. 322

yolla çatdırırdılar. Küçə-küçə gəzib yüksək səslə qışqırır, insanları mövcud vəziyyətdən, olanlardan xəbərdar edirdilər

Layla və oxşamalarda köhnəlmiş sözlərin həm arxaizm, həm də tarixizm növləri yer alır. Tarixizmlər bu nümunələrdə daha çox diqqəti cəlb etdiyi və məhsuldarlıq kəsb etdiyi üçün onlar bu formada qruplaşdırılır:

1. Köhnə üsul-idarə, titul, vəzifə, silk və s. bildirən sözlər;
2. Silah və döyüş ləvazimatlarının adları;
3. Geyim və örtük adları;
4. Pul vahidlərinin adları.

IV paraqraf **"Sinonim, antonim və omonimlərin bədii imkanları"** adlanır. Dildə və nitqdə böyük dəyəri olan sinonimlər rəngarəng məna çalarlıqlarını dəqiq ifadə edə bilən güclü semosioloji hadisədir. Sinonimlər dilin, nitqin məna sistemini zənginləşdirməyə xidmət edir.

Layla və oxşamaların janr poetikası ilə bağlı strukturunda eyni məzmunu müxtəlif ifadə formaları, bir-birindən şəkilcə fərqli dil vahidləri ilə gerçəkləşdirməsi bu folklor növünün başlıca funksiyasıdır. Sinonimliyin mahiyyətini, əsasını məzmunca yaxın semantik çalarlı linqvistik vahidlərlə ifadə etmək təşkil edir.

Məzmununa görə bir-birinə yaxın olub, formasına görə fərqlənən sözləri-sinonimləri və onların poetik üslubi xüsusiyyətlərini öyrənmək layla və oxşamaların nitqinin leksik-semantik xüsusiyyətlərini üzə çıxarmağa kömək edir. Bu vahidlər üslubi tələbatla bağlı işlənərək şeirin ifadəliliyini, elastikliyini birbaşa təmin edən faktor kimi çıxış edirlər. Ən başlıca vəzifə burada sinonimlərdən yerli-yerində və onların düzgün variantının seçilərək işlədilməsidir:

Qızım qızlar içində,
Saç-birçəyi qıçında
Qızım kimi qız olmaz,

Kəlbəcərdə, Laçında[15].

Layla və oxşamalarda sinonimlərdən leksik-üslubi vasitə kimi istifadə olunması müxtəlif məqsədli ola bilər. Lakin daha çox onların işlədilmə ehtiyacı aşağıda qeyd edəcəyimiz iki məqamda özünü diqqətə yönəldir:

a) Mətndəki vacib sözü daha da qabarıqlaşdırmaq, ondakı mənanı qüvvətləndirmək üçün sinonim variantlarının birlikdə işlədilməsinə ehtiyac duyulur;

b) Əlavə izahat, yəni hər hansı sözün ətraflı və aydın anlaşılması üçün sinonim sözlər yanaşdırılır.

Şeirlərdə işlənən sinonim sözlərin hamısı eyni mənşəli deyildir. Bu cəhətdən layla və oxşamalarda sinonimik cərgəni təşkil edən sinonimlər mənşəyinə görə əsasən aşağıdakı formalarda çıxış etdiklərini göstərə bilərik:

a) milli mənşəli söz + milli mənşəli söz:

Laylay çiçəyim laylay,
Gözəl, göyçəyim, laylay
Bala dərdi çəkməkdən,
Soldu birçəyim, laylay[16].

b) alınma mənşəli söz + milli mənşəli söz:

Gül dolu taxtın olsun,
Qızıldan baxtın olsun,
Laylay göyçəyim laylay,
Gülüm, çiçəyim laylay [17].

c) alınma mənşəli söz + alınma mənşəli söz:

Laylay dedim yatasan,
Dərdi-qəmi atasan.

---

[15] Qəhrəman, İ.U. Laçın folkloru / İ.U. Qəhrəman. – Bakı: Adiloğlu, – 2009. – s.172

[16] Azərbaycan folkloru antologiyası. Dərələyəz folkloru / toplayıb tərt. ed. H. Mirzəyev, H. İsmayılov, Ə. Ələkbərli. – Bakı: Səda, – 2006. c. 15. – s.329

[17] Azərbaycan folkloru antologiyası. Dərbənd folkloru / toplayıcılar H. İsmayılov, S. Xurdamiyeva ; tərt. ed., ön söz. H. İsmayılov, T. Orucov ; red. H. İsmayılov/ – Bakı: Səda, – 2006. XIV kitab. –s.294

Qızılgül bağın olsun,
Gül-çiçəyə batasan [18].

Ümumiyyətlə şeir dilində müəyyən fikri, əlaməti daha qabarıq şəkildə gözə çarpdırmaq, nitqə kinayə, tərif və s. çalarlar vermək, şikayət, razılıq və yalvarışları daha təsirli ifadə etmək və canlı dilin xüsusiyyətlərini saxlamaqdan ötrü mətndəki təzadlı halların uğurlu bədii ifadəsinə təkan vermək üçün antonimlik bildirən leksik vahidlər uğurla qarşılaşdırılır.

Leksik bir kateqoriya olaraq antonimlərin əsas mahiyyəti əksilik və ziddiyyət formalaşdırmaq; şeir nitqində isə onun əsas üslubi vəzifəsi fikri daha emosional və təsirli çatdırmaqdır. Layla və oxşamalarda antonimlərin bədii-üslubi çəkisi müəyyənləşir. Uğurlu bədii mətn mühiti antonimləri üslubi yüklə təmin edir. Onlar xalq şeir üslubuna xas olan bədii əlamətləri dolğun, bütöv əksetdirmə məziyyətləri qazanırlar:

Allah, allah amandı,
Bunun qaşı kamandı.
Aşağı qoyma hisdənər,
Yuxarı qoyma pasdanar [19].

Apardığımız araşdırmalar göstərir ki, antonim sözlər bu şeirlərdə növbələşərək davamlı, zəncirvari ekspressiya işığı yarada bilmiş və varlıqların ziddiyyətli cizgilərini təsvir edə bilmişlər. Təbii ki, başqa üslubi vasitələr kimi antonimlərin layla və oxşamalarda yaratdığı üslubi çalarlar, xüsusiyyətlər və işlənmə məqamları da müxtəlifdir. Təzadlı lövhələr yaratmasına baxmayaraq, antonim sözlər bədii nitq şəraitinin ümumi ruhu ilə uyğunlaşa bilir, layla və oxşamaların ümumi poetik ruhunun sahmanlanmasında qabaqcıl və fəal mövqe tutur. Onlar üstün bədii görünüşə yeni keyfiyyətlər qatır və müxtəlif çağlarda

---

[18] Azərbaycan folkloru antologiyası. Dərələyəz folkloru / toplayıb tərt. ed. H. Mirzəyev, H. İsmayılov, Ə. Ələkbərli. – Bakı: Səda, – 2006. c.15.–s. 329

[19] Azərbaycan folkloru antologiyası. Göyçə folkloru / tərt. ed. və ön sözün müəl. H. İsmayılov ; red. Y. Qarayev.– Bakı: Səda, – 2000. III kitab. –s.686

işlənir. Amma biz onların daha özəl olanlarını əsas götürməklə bu cür qruplaşdırdıq:

1. Antonimlərin iştirakı şeiri dinləyən insanda ruh yüksəkliyi, dərin emosional hiss, yüksək əhval-ruhiyyə yaranmasına səbəb olur;

2. Antonimlər təsvir olunan əsas anlayışların başlıca daxili özəlliyinin açılmasına kömək edir

3. Layla və oxşamalarda antonimlər vasitəsilə antiteza yaradılır.

Omonimlərin bədii yaradıcılıqda istifadəsi təbii və qanuni hadisədir. Bu vahidlər şeir dilində həm üslubi, həm də estetik funksiya daşıyıcısı kimi çıxış edirlər. Səslərin harmonik düzülüşü layla və oxşama üslubunda da əsas üslubi keyfiyyətdir. Odur ki, omonimlər də layla və oxşamaların tərkibində bədii qayənin daxilıı məntiqinə uyğun gəlir. Onların yaratdığı ahəngdarlıq mətn nitqinin rüşeymi kimi çıxış edir. Layla və oxşamalarda fikir və duyğuların ritmik axarında omonimlərin səslənmə keyfiyyəti öz üslubi vəzifəsini yerinə yetirir.

Omonimlərin bütün növləri-leksik-semantik omonimlər, omoqraflar, omofonlar bədii dildə, xüsusən də folklorda güclü ifadəli vasitədirlər. Bu baxımdan layla və oxşamaların dilində də omonimlərdən bədii dilin zəruri vasitəsi kimi geniş istifadəsini görmək olur. Omonimlər burada danışanla dinləyən arasında psixoloji-emosional münasibətin mahiyyətinə uyğun ortaya çıxır. Nümunələrdən də görünür ki, bu şeirlərdə omonimlərdən fəal və zəruri leksik-üslubi vahid kimi yaradıcı şəkildə istifadə olunmuşdur.

Dağların qarı mənəm,
Gün vursa ərimənəm.
Balam leyla deməğdən,
Ölüncə qarımanam [20].

---

[20] Kərkük folkloru antologiyası / tərtib ed.: Q.M.Paşayev. – Bakı: Azərnəşr, – 1990.– s.297

Nümunədə qarı mənəm və qarımanam sözləri təsadüfi fonetik uyğunluq nəticəsində qarşılaşdırılır və *omofon* adlanırlar. Xatırlatmaq yerinə düşər ki, "qarımanam" feilinin kökündə "qarı" maq feili dayanır və o qarı (qoca) sözü ilə leksik omonimdir.

Ümumiyyətlə, omonimlərin layla və oxşamaların dilində oynadıqları üslubi rol bu cür qruplaşdırıla bilər:

a) omonimlər nitqin obrazlılığını təmin edir; b) dinləyicidə emosional ruh yaradır; c) estetik təsir vasitəsi kimi çıxış edir; d) şeirdə cinas yarada bilir

V paraqraf **"Frazeoloji birləşmələrin obrazlılığı"** adlanır. Hər hansı bir bədii əsərin dil sənətkarlığından, üslubi vasitələrindən söhbət gedirsə frazeoloji birləşmələrin, idiom və ibarələrin bu nümunələrdəki üslubi vəzifəsinə toxunmamaq tədqiqatı yarımçıq qoymaq deməkdir. Demək olar ki, heç bir bədii əsərin dili bu məcazi birləşmələrdən yan keçməyib. Çox zəngin frazeoloji sistemi olan Azərbaycan dilinin məhz bu sahəsinin daha dərindən öyrənilməsi üçün şifahi xalq ədəbiyyatı nümunələrimizin-layla və oxşamaların dilindəki frazeologizmlərin öyrənilməsi çox vacibdir. Əsas səbəblərdən biri isə şifahi xalq ədəbiyyatı nümunələrinin müasir dövrümüzə agızdan-ağıza keçərək gəlib çatması və gündəlik danışıq dilinə daha yaxın olmasıdır. Əlbəttə ki, belə olan təqdirdə frazeoloji birləşmələrin bu şeirlərdə ən aktiv üslubi vasitə olduğuna heç bir şübhə qalmamalıdır.

Frazeologizmlərə xas olan obrazlılıq, məcazilik, emosionallıq, ekspressivlik xüsusiyyətləri onların şifahi xalq yaradıcılığı nümunələrində geniş şəkildə istifadəsinə imkan verir. Bədii mətnlərdə bu vahidlərin işlənmə tezliyi, onların sahib olduqları dərin və geniş semantika ilə bağlıdır.

Frazeoloji ifadələr vasitəsilə bu şeirlərdə ifadə olunan fikirlər həm incəliyinə qədər çatdırıla bilmiş, həm də emosionallıq, obrazlılıqla təmin edilmişdir:

Canım bala, gül bala,
Ana qədrin bil bala.

Yaman günün gərəyi,
Çağıranda gəl ala[21].

Frazeoloji birləşmələrin istifadəsində layla və oxşamalarda poetik ölçü duyğusu həmişə gözlənilir. Onun bütün növləri sərrastlıq və dəqiqlik meyarlarına müvafiq olur.

Ümumiləşmiş halda frazeologizmlər üç formada işlənir: a) frazeoloji sözlər; b) frazeoloji ifadələr; c) frazeoloji cümlələr.

Layla və oxşamalarda frazeoloji sözlərə o qədər rast gəlinməsə də, frazeoloji ifadə və cümlələr yetərincə məhsuldardır.

Frazeoloji ifadələr iki, bəzən üç, bəzən də dörd və daha artıq sözün birləşməsindən ibarət olur. Məlum olduğu kimi frazeoloji birləşmələrin əsasında məcazilik durur. Yəni tərəflərin bəzən biri, bəzən də hər ikisi həqiqi mənasından uzaqlaşaraq birləşmə yaratmış olurlar.

Bu baxımdan layla və oxşamalarda işlənən frazeoloji vahidləri komponentlərinin sayına görə üç yerə bölmək olar: a) ikikomponentlilər: başı ağarmaq, dimdiyi almaz, səhər gülü, qara göz... b) üçkomponentlilər: gözümü sənə tikmişəm, ayın-günün parası, yuxuya şəkər qatmaq, c) dörd və daha çox komponentlilər: heç bir şeydə gözüm yoxdur, tanrı səni bəd nəzərdən saxlasın, hay-küyə basma məni və s.

Layla və oxşamaların üslubunun leksik-frazeoloji tutum genişliyi imkan yaradır ki, onlar öz üslubi müəyyənliklərini gerçəkləşdirsin. Belə ki, quruluşundan və növündən asılı olmayaraq bütün frazeoloji vahidlərin yaratdığı ekspressiya fonunda bədii məzmun daha tez açılır. Bu amilin səciyyəsində frazeoloji dil materialını təşkil edən sözlərin leksik-qrammatik xüsusiyyətləri də xüsusi diqqət çəkir.

Bu cəhətdən layla və oxşamalarda yer alan frazeoloji vahidlər ismi, sifəti, zərfi, feili və nidayi olaraq təsnif edilə bilər.

---

[21] Azərbaycan bayatıları / tərtib ed.: B. Abdulla, Q. Babazadə, E. Məmmədli. – Bakı: XXI-Yeni nəşrlər evi, – 2004. –s.205

“Məcazlar sisteminin ekspressiv imkanları” II fəslin VI paraqrafıdır**.** Bu paraqrafda göstərilir ki, məcazi leksika layla və oxşamalarda ekspressivlik yaratmaqla bərabər, həm də yüksək bədii ovqat doğurur.

Məcazlardan yetərincə araşdırmaya daxil edilməsi, onlardan geniş danışılması təsadüfi deyildir. Çünki layla və oxşamalarda məcazi sözlərə çox rast gəlinir. Ana ilə övladı arasında ən saf, ən güclü sevgi və bağlılıq hissi vardır, bu şeirlərdə hissin, emosiyanın, obrazlılığın daha üstün yerdə dayandığını təbii saymaq lazımdır. Şeirlərdəki hər bir misra, hətta hər bir birləşmə və söz yüksək daxili hisslərin tələbatına uyğun yaranıb. Məcazlar bu prosesin əsas yaradıcı, güclü ifadə görümləridir. Bədii təsvir və ifadə vasitələri kimi də adlandırılan məcazlar, layla və oxşama üslubunun əsas dayağı, tikinti materialıdır.

Sözün əşyavi-məntiqi əlaqələrinin müxtəlifliyi bu şeirlərdə də məcazların fərqli növlərinin yaranmasına imkan verir.

Metafora hər hansı səciyyəvi əlamətin başqa bir hadisəyə, canlı və ya cansızlar aləminin predmetinə keçməsi ilə yaranır. Təbii ki, bu köçürmə zamanı predmetin bütün cəhətləri deyil, üslubu məqama uyğun ən vacib olanı və ya olanları seçilir:

Laylay, a balam, laylay,
Alınmaz qalam, laylay.
Sənə kəc baxannarı,
Yandırsın nalam laylay [22].

Metaforalar işləndiyi şeirlərdə müxtəlif üslubi vəzifələr icra edə bilirlər:

1. Körpəni ona müraciətlə oxşamaq, nəvaziş göstərmək funksiyasında çıxış edən metaforalar;

2. Ananın öz balasına olan gələcək arzularının təsvirinə xidmət edən metaforalar;

---

[22] Abdullayev, B.A. Arazam Kürə bəndəm / B.A. Abdullayev. – Bakı:Yazıçı,– 1986. –s.160

3. Tərif xarakterli metaforalar.

Təşbeh poetik fikir yükünü öz üzərinə götürən bədii təsvir vasitəsi kimi layla və oxşamalarda mühüm üslubi funksiyalı detaldır və mətnin poetik məğzini üzə çıxarmaqla misilsiz rol oynayır. Təşbehlər layla və oxşamalarda obrazlı düşüncənin yığcam ifadə vasitəsi olaraq mətni bədii cizgilərlə zənginləşdirir.

Bu məcaz oxşatma və ya bənzətmə kimi də adlandırılır. Lakin bənzədilmək əksər məcaz növlərində başlıca şərtlərdəndir. Təşbehin isə özünəməxsus bir strukturu vardır. Burada bənzətmə yaranması üçün dörd ünsür çıxış edir: bənzəyən, bənzədilən, bənzətmə qoşması və bənzətmə sifəti.

Layla və oxşamalarda çox vaxt ümumi əhvali-ruhiyyə, lirik-emosional ovqat təşbehlər vasitəsilə yaradılır:

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim balam körpədi,
Saxlasın pərvərdigar [23].

Dinar bir çox ərəb ölkələrində hələ də işlənən qədim pul vahidlərindəndir. Nümunədə çinar ağacının yarpaqları dinara bənzədilir. Görünür bu laylanın oxunması ilin payız fəslinə təsadüf etmiş, yarpaqlar sarı-qızılı rəng olduğu üçün dinara bənzədilmişdir.

Layla və oxşamalarda işlənən məcaz növlərindən biri də epitetdir. Məcazın bu növü həm də bədii təyin adlanır. Poetik nitqdə hansısa vacib sözün mənasını və ya hansısa xüsusiyyətini qüvvətləndirmək məhz epitetin işidir.

Mətn daxilində yer alan obrazların hansısa keyfiyyətinin qiymətləndirilməsi də bu məcazın payına düşür. Nəzərə alsaq ki, bədii mətnlər hansısa müəllif tərəfindən tərtib olunur, qeyd etməliyik ki, burada işlənən bədii təyin danışanın həmin

---

[23] Azərbaycan folkloru antologiyası. Göyçə folkloru / tərt. ed. və ön sözün müəl. H. İsmayılov ; red. Y. Qarayev.– Bakı: Səda, – 2000. III kitab. – s.66

məfhuma emosional münasibətindən yaranır. Layla və oxşama nümunələrimizdə də bu məcaz məhz ana ilə övladı arasındakı münasibətin və dərin hisslərin təzahüründən yaranır. Bu münasibət layla və oxşamalara, onun dilinə, ruhuna xüsusi təravət bəxş edir:

Payızımsan, yazımsan,
Həm çoxum həm azımsan.
Sən mənim vuran qəlbim,
Çiçək açan yazımsan [24].

Layla və oxşamalarda epitet müxtəlif üslubi vəzifələrdə çıxış edə bilir:

a) övladına olan sevginin, vurğunluğun göstərilməsi naminə işlənən tərif xarakterli bədii təyinlər;

b) Övladının daha rahat yuxuya keçməsi üçün işlədilən arzu xarakterli bədii təyinlər.

Elmi tədqiqatın nəticələri dissertasiyanın **"Nəticə"** bölməsində ümumiləşdirilmişdir:

1. Azərbaycan ədəbi dilinin danışıq dili əsasında formalaşan müxtəlif yönümlərini, onun inkişaf yolunun ilkin mərhələlərini dəqiqləşdirmək üçün qədim və zəngin folklor janrlarında, o cümlədən layla və oxşamalarda zəngin material vardır. Azərbaycan layla və oxşamaları xalqın mənəvi dünyasının zənginliklərini, dünyagörüşünü əks etdirdiyi kim, həm də dilimizin ən etibarlı daşıyıcısı, nəsildən-nəsilə ötürülən əmanəti leksik-semantik söz qruplarını, frazeoloji vahidləri qoruyan zəngin xəzinədir. Buna görə də layla və oxşamalarda işlədilən fonetik-leksik vahidlərin linqvistik xarakterinin açılması, onların üslubi mahiyyətinin araşdırılması mühüm əhəmiyyət daşıyır.

2. Layla və oxşamaların nitqi və üslubu üçün ədəbi dilin transkripsiyası təbii hadisədir və onun təhlili prosesində bir sıra özünəməxsus cəhətlər meydana çıxır. Ən əsası odur ki, bu

---

[24] Azərbaycan folkloru antologiyası. Qaraqoyunlu folkloru / toplayıb tərt. ed. H. İsmayılov, Q. Süleymanov. – Bakı: Səda, – 2002. VII kitab. –s.339

cəhətləri layla və oxşamaların öz daxili mahiyyəti nizama salır. Layla və oxşamalar dilimizin danışıq qaydalarına uyğunlaşdırılmışdır. Şifahi yolla yazıya alındığından layla və oxşamaların dilində ədəbi dilin transkripsiyası, leksik vavhidlərin ədəbi tələffüzə uyğun şəkildə yazılması təbiidir. Sabitləşmiş orfoqrafik normalara təsir göstərən mövcud qaydalardan kənaraçıxma meylləri əsasən poetexnik zərurətdən irəli gəlir. Sözün tərkibindəki səslərin xüsusi tələffüz şəraitində dəyişməsi qanunauyğun akustik prosesin nəticəsidir və dil vahidlərinin tələffüz variantında işlədilməsi layla və oxşamalar üçün olduqca səciyyəvidir.

3. Layla və oxşamalarda assonans zəngin intonasiya çalarları ilə diqqəti çəkir. Poetik fikrin qavranılmasında böyük rol oynayan assonans poetik məzmunun təzahür vasitələrindən biri kimi zəngin üslubi keyfiyyətlərlə çıxış edir. Layla və oxşamaların formalaşmasında sözün səs tərkibinə ciddi poetik mövqedən yanaşılmış, sözlərin tərkibindəki sait təkrarlarına, onların səslənmə keyfiyyətlətinə xüsusi diqqət yetirilmişdir. Bunun nəticəsi olaraq assonans mətnin şeiriyyətini təbii ritm və ahəngdarlıqla yükləmişdir. Dinləyicinin diqqətini özündə cəmləşdirmə işində saitlərin fonoloji təkrarı müstəsna rol oynayır, sözlərin əlaqələnmə nizamına, misraların optimal ölçülər qəlibinə düşməsinə, ahəngdar qruplaşma sisteminə və nəhayət poetik fikir bitkinliyinə güc verir.

4. Layla və oxşamaların dilində alliterasiya çevik və təsirli ifadə üsullarındandır. Mətnin akustik incəliklərinin yaranması, oynaq vəzn və ahəngdarlığın meydana çıxması bütün dolğunluğu ilə alliterasiya vasitəsilə üzə çıxır. Məzmununa uyğun ritm qəlibləri, avazlanma çalarlarını nizamı, poetik ovqatın təcəssümü samit səslərin təkrarlarının ifadəlilik imkanları hesabına yaranır. Səs obrazlarının daha çox samitlərin alliterasiya yaratmalarına söyənildiyi diqqətə yönəldilir. Fonetik faktlarla canlanan layla və oxşama poetikasında ən mühüm xüsusiyyətlər aşkarlanır. Layla və oxşamalardakı alliterasiya

samit səslərin sadəcə müəyyən məsafələrdə təkrarı kimi yox, milli şeir ənənəsinə, folklor deyim tərzinə bağlılığını dəyərləndirmək baxımından diqqəti çəkir.

5. Ritm və intonasiya layla və oxşamaların əsas dil faktı, göstəricisidir. Onun bədii-estetik sistemindən qıraqda deyildir. Ritm və intonasiya ilə daha çox bağlı olan layla və oxşamalarda misraların çeviklik və oynaqlığı da bu amillə birbaşa bağlıdır. Canlı nitqin zəngin avazlanma çalarları onu yaradan linqvistik vasitələrə əsasən gerçəkləşir, canlı danışıq dilinin ahəngi layla və oxşamaların üslubunda mərkəzi yer tutur. Uyğun misra biçimləri, dil üsnürlərinin uyğun quruluşu ritm və intonasiya yaradıcılığını inkişaf etdirir. Oynaq ahəng və avazlanma yaratdığı obrazlılıq səmimi duyğu və həyəcanlarda əks-səda tapır. Hiss və duyğuların dinamikası məhz nümunəvi bədii ritm və intonasiyadan nəşət edir.

6. Anafora və epifora layla və oxşamalarda ifadəliliyi gücləndirən üslubi vasitə kimi çıxış edən poetik kateqoriyalardandır. Misraların əvvəlində və sonunda təkrarlanan sözlər mətnin mövzusuna xüsusi sanbal, səslənmə gözəlliklərinə intensivlik verir, məzmunun daxili enerjisini qabarıq şəkildə üzə çıxarır. Poetik düşüncənin, hiss-həyəcanların ritmik-melodik təsvirində poetik amilə çevrilir, poetik mühitin emosional dayaqlarını möhkəmləndirir. Anafora və epifora bədii sferanın formalaşdırılması prosesindəki fəallığı ilə misralara simmetrik struktur gözəlliyi gətirir, ritmik paralelizmlərin əsas təminatçısı kimi çıxış edir.

7. Poetik mətnin təşkilində ümumişlək sözlər üslubi fəallığına görə seçilir, poetik meyarların ölçülərini genişləndirir. Layla və oxşamalarda bədii mühakimənin əsas predmeti dilimizin mövcud ümumişlək söz ehtiyatına, ümumişlək leksik vahidlərin bədii-üslubi qaynaqlarına istinadən təcəssüm etdirilir. Müşahidələr göstərir ki, layla və oxşamalarda canlı xalq dilinə yaradıcı yanaşma ilk növbədə bədii-üslubi zərurətdən doğur,

lirik düşüncəni maksimum dərəcədə sərbəst əksetdirmə istəklərindən nəşət edir.

8. Layla və oxşamalarda dialekt leksikasının xüsusi üslubi mövqeyi, bədii-semantik çalarları, nominativ və ekspressiv funksiyaları vardır. Müxtəlif üslubi məqamlarda dialekt materialları layla və oxşamaların kontekstinə nüfuz etməklə onun sətirlərinə canlı xalq danışıq dilinin saflığını, deyim təbiiliyini gətirmişdir. Ədəbi dildən fərqli müəyyən fonetik, semantik və qrammatik xüsusiyyətlərlə özünü göstərən dialektizmlər ifadəli nitq vasitəsi olan poetik canlandırmanın təbii naxışları təsirini bağışlayır. Fonetik, leksik və qrammatik dialektizmlər layla və oxşama üslubunda olduqca təbii görünür.

9. Köhnəlmiş sözlər layla və oxşamalarda özlərinə bəddi söz ləyaqəti qazana bilən leksik vahidlərdir. Bu vahidlər nümunələrdə estetik-poetik, dini-fəlsəfi məramlara xidmət etmişdir. Arxaik leksika şeirlərdə obrazların tipikləşdirilməsi və fərdiləşdirilməsinin başlıca icraçısı olan dil vahidləridir. Öz dövrü üçün vacib məfhumları bildirən və həmin tarixi mərhələdə ümumişlək sözlər kimi mövcud olan köhnəlmiş sözlər şeirin dilində olduqca təbii görünür. Layla və oxşamalarda əks olunan köhnəlmiş sözlərin dilimizin dialekt və şivələrində paralellərini aşkara çıxarmaq onların dilimizin inkişafında nə qədər mühüm dil vahidləri olması faktını təsdiqləyir.

10. Düşüncəni bütöv, dolğun incəliyi ilə dinləyiciyə çatdırmaq, bədii fikrin estetik təsirini yüksəltmək, deyim formasını gözəlləşdirmək işində sinonimlər yetərincə bənzərsiz əhəmiyyət daşıyır. Mövzu və poetik şəraitə uyğun söz seçmə ölçüsü layla və oxşamalarda yüksək üslubi göstəricilər sırasındadır, məzmuna uyğun sononim cərgənin uyğun sözünü işlətmək layla və oxşamaların dilində nümunəvi hadisədir. Sinonimlərin layla və oxşamalardakı leksik-semantik vahidlər sistemi ilə bağlılığı mətnin ümumi poetik şairanə mənzərəsinə zəngin üslubi çalarlar əlavə edir. Mətnin üslubi yönəlməsinə

uyğun gələn sinonimlər layla və oxşamaları canlı şəkildə əks etdirən dil vahidləridir.

11. Lirik ovqatın psixoloji və təzadlı məqamlarının ifadəsində antonim ən uyğun ifadə görümləri funksiyasını yerinə yetirir. Layla və oxşamalarda antonimlər poetik mühiti yetərincə canlandırmağa, emosianallığı artırmağa, hissi-emosional dayaqlarını hiss olunacaq dərəcədə artırır, bədii dinamizmi möhkəmləndirməyə xidmət göstərir. Layla və oxşamalarda əks mənalı sözlər yalnız təsvir obyektinin zahiri təsviri ilə məhdudlaşmır, onlar məzmunun daxili məğzində nüfuzetmə imkanları yaradır. Antonimlərin yaratdığı təzadlı bədii lövhələr tərənnüm və təsvir obyektini dinləyicinin təsəvvüründə dolğun şəkildə canlandırmağa yönəldilir.

12. Omonimlər layla və oxşamaların dilində olduqca təsirli və zəruri tələbata uyğun təsvir vasitəsidir. Onun bədiilik ölçüləri və işlənmə ölçüsü mətnin linqvistik strukturunda xüsusi üslubi işləklik qazanır. Eynicinsli səs tərkibli sözlərin ifadəlilik imkanlarından ən çox istifadə təsvir obyektinin daxilində olan bütöv məzmunlu anlayışları üslubi incəliklərlə canlandırır, mövzunu tutumlu fikir və düşüncələrlə zənginləşdirir.

13. Layla və oxşama poetik örnəklərinin dil sistemində frazeoloji vahidlər başlıca yer tutur. Bu bədii materiallarda xalq hikmətinə əsaslanmaq olduqca güclüdür və onun ifadəsi dilimizin milli ruhuna söykənir. Layla və oxşamalarda frazeologizmlərin zəngin bədii həyatı vardır. Çünki frazeoloji vahidlər adi danışıq, ünsiyyət funksiyasından daha çox obrazlı deyim mühitinin yeni-yeni çalarlarla təzahürünə xidmət edir. Öz xəlqi keyfiyyətlərinə görə seçilən frazeoloji vahidlər layla və oxşamalarda öz ekspressivliklərinə, emosionallıq məziyyətlərinə görə seçilir və zəngin semantik-üslubi keyfiyyətlərlə çıxış edir. Layla və oxşamalarda fazeoloji vahidlərin obrazyaratma potensialı, obrazlı mahiyyəti aşkarlanır.

14. Layla və oxşamaların bədii keyfiyyətində məcazi sözlərin yüksək dərəcədə bənzərsiz əhəmiyyəti vardır. Sözün məcazlaşdırılması üslubi keyfiyyət kimi sözün obrazlı çəkisinin ağırlığı müəyyən edir. Epitet, müqayisə, metafora və digər bədii təsvir vasitələri layla və oxşamaları poeziya sərvətinə, mənəvi enerji mərkəzinə çevirir. Bədii ölçü və estetik prinsipləri hiss etdirir ki, layla və oxşamalardakı məcazların hər biri poetik fikrin aydınlığını öz üzərinə götürən dil vahidləridir.

Dissertasiyanın əsas müddəaları aşağıdakı tezis və məqalələrdə əks olunmuşdur.

1. Layla və oxşamalarda vokativ sözlər // – Bakı: Pedaqoji Universitet xəbərləri. –2013. № 4. – s. 218-221.
2. Layla və oxşamalarda nida // –Bakı: Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. – 2014. № 5. – s. 80-85.
3. Laylanın dili // Türk dünyası araşdırmaları vakfı. – İstanbul: Uluslararası türk dünyası. –2016. – s.1025-1028.
4. Layla və oxşamalarda sinonimlər // –Bakı: Elmi xəbərlər. Azərbaycan Dillər Universiteti. – 2016. № 5. – s. 56-61.
5. Layla və oxşamalarda fonetik transkripsiya // –Bakı: Tədqiqlər. AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutu. – 2017. № 2.– s. 155-160.
6. Языковые и стилистические особенности ассонанса и аллитерации в колыбельных и охшама в азербайджанском языке // – Россия: Бюллетень науки и практики. Тюменская область. – 2018. № 6.–s.439-447.
7. Layla və oxşamalarda ismi frazeologizmlərin üslubi rolu // – Gəncə: Elmi xəbərlər. Gəncə Dövlət Universiteti.– 2019. № 2. – s.312-317.
8. Layla və oxşamalarda metaforaların üslubi potensialı // –Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti.– 2019.№ 1.– s. 117- 120.

9. Layla və oxşamalarda fonetik dialektizmlərin üslubi funksiyaları // – Bakı: Dil və ədəbiyyat. Bakı Dövlət Universiteti.– 2019. № 2. – s. 463-466.
10. Layla və oxşamalarda işlənən bəzi köhnəlmiş sözlər barədə // – Türkiyə: Turan Stratejik Araştırmalar merkezi. – 2020. № 45. – s. 193-198.
11. Layla və oxşamalarda ümumişlək sözlərin üslubi rolu // –Bakı: Elmi əsərlər. Bakı Slavyan Universiteti.– 2020. № 1. – s. 69-74.
12. Стилистические особенности глагольных фразеологизмов в азербайджанских колыбельных песнях и ласковых словах // – Екатеринбург: Международный научно-исследовательский журнал.– 2021.№ 2.– s. 192-195.
14. Uşaq ədəbiyyatında layla və oxşamalar // Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi konfransı. –Bakı, – 2013. – s. 330-331.
15. Laylaların ritmi // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi konfransı. – Bakı. – 2013. – s. 109-111.
16. Layla və oxşamalarda emosionallığı təmin edən vasitələr // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika Elmi konfransı. –Bakı. – 2015. – s. 441-443.
17. Layla və oxşamalarda antonimlərin üslubi xüsusiyyətləri // III Beynəlxalq Türk dünyası araşdırmaları Simpoziumu. – Bakı.– 2016. – s.333-335.
18. Layla və oxşamalarda sinonimlər və antonimlərin üslubi xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XX Respublika Elmi konfransı. – Bakı. – 2016. – s. 111-113.
19. Ninni və oxşamalarda teşbih tezis // Uluslararası Eğitim və Yenilikçi Bilimler Sempozyumu. – Ankara. – 2019. – s. 219-226.
20. Layla və oxşamalarda omonimlər // V İnternational European Conference on Social Sciences. – Turkey. İzmir. – 2020 . – s. 138-146

21. Azərbaycan layla və oxşamalarında epitet // AL FARABI JOURNAL 9 th International Conference on Social Sciences Nakhchivan University. – Azerbaijan. – May 2-4, – 2021. – s. 56 – 51.
22. Grammatical dialectisms in lullabies and praise songs // –Одеса:Вчені записки. Таврійський національний університет ім. В. І. Вернадського. – 2021. Том 32 (71) № 6, Частина 2, –с. 66-72.

Dissertasiyanın müdafiəsi **29 Mart 2022** - ci il **saat 11^{00}** -da Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ5008, Sumqayıt şəhəri, 43cü məhəllə. Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universietinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Disstertasiya və avtoreferatın elektron versiyaları Sumqayıt Dövlət Universietinin rəsmi saytında (www.sdu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 19 fevral 2022 -ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15 fevral 2022

Kağızın formatı: 60*84/$^{1/16}$

Həcm: 41406

Tiraj: 100